ədalət.-2019.-28 may.-S.5.

# Nəsiminin qabağına "şuba" ilə çıxmağa bənzəyir - fəxri adlarla bağlı SORĞU

*Prezident İlham Əliyevin"Azərbaycan Respublikasının mədəniyyət xadimlərinə fəxri adların verilməsi haqqında" sərəncamı əsasında bir sıra yazıçı və digər mədəniyyət işçilərinə fəxri adlar verildi.*

*Adalet.az bu hadisə ilə bağlı sorğu keçirərək yazarların mədəniyyət xadimlərinə verilən bu adlarla bağlı nə düşündüyünü öyrənib.*



**Salam Sarvan:** İki sevimli şairimizi təbrik edən əksər dostlarımız belə fikir səsləndirdirir ki, onlar onsuz da Xalqın şairiydilər, yaxşı ki Xalq şairi də oldular.

"Xalq şairi"nin nə olduğunu bilirəm - fəxri addır. Amma başım çıxmır ki, "Xalqın şairi" nə olan şeydir, nə deməkdir bu? Zarafatsız, bilmirəm.



**Şərif Ağayar:** Bu ənənə varsa, davam edəcək. Məndən olsa rəsmi titullar ləğv edilər. Əvəzində konkret layihələrə, proyektlərə vəsair ayrılar, yadrım göstərilər. Ancaq madam ki,ləğv eləmirlər və bu ənənəni yaşatmaq istəyirlər, mən də dəyərli yazıçılarımızı təbrik edirəm. Siyahı kifayət qədər ciddidir.



**Aqşin Yenisey:** Yaxından-uzaqdan maraqlanmadığım bir məsələdir. Bütün ölkələrin humanitar protokollarında var bu cür mükafatlandırmalar, ancaq ədəbiyyat tarixi üçün heç bir əhəmiyyəti yoxdur bu inzibati şan-şöhrətin. Dərisi soyulan Nəsimin şöhrətinin qabağına "şuba" ilə çıxmaq kimi bir şeydir.

**Cəlil Cavanşir:** Düşünürəm ki, fəxri adlar ləğv edilməlidir. Çünki, Azərbaycanda heç bir



sahədə kriteriya gözlənilmir. Ümumiyyətlə "Biləcəridən o tərəfə" çıxa bilməyən yazıçıya, şairə , incəsənət xadiminə fəxri adlar verilsə nə dəyişəcək? Artıq dünyaya çıxmış yazıçının bu fəxri ad nəyinə lazımdır? Ədəbiyyatı, incəsənət və mədəniyyəti stimullaşdırmaq üçün daha ciddi və perspektivli layihələrə ehtiyac var. Mükafat alan hər zaman mükafat verənə qarşı loyal davranmağa məhkumdur. Ya da loyal davrandığı üçün mükafat alır. Bu baxımdan mən bu mükafatları boş və mənasız sayıram. Hətta mükafat alanlar arasında sevdiyim imzalar olsa da, mənim mükafatlara münasibətim mənfidir. Artıq heç bir meyarı, dəyəri, kriteriyaları olmayan mükafatların ədəbiyyata, yazıçıya heç bir faydası yoxdur. Bəziləri üçün isə bu mükafatlar sadəcə "sus payı"dır.



**Aqşin Evrən:** Çox qəribədir ki, son illərdə hamı musiqi və film sektorunun bərbad olmasından şikayətlənir. Ancaq fəxri adlar məhz bu sahənin adamlarına verilir. Fəxri ad verilənlərin əksəriyyəti nə vətəndaş, nə də sənətçi əxlaqı baxımdan toya-bayrama getməlidir (Təbii, fəxri ad alanlar arasında istedadlı gənclər də var).

Bunun müqabilində isə yazıçı və şairlər durmadan toplumun, xalqın bəlli baryerləri aşması üçün cəhdlər edirlər, sosial proseslərin içində olurlar, lakin qocaman şairlərimiz hələ indi - ölüm ayağında olanda bu fəxri adlara layiq görülürlər.

Yəni deməyim odur ki, fəxri ad verilirsə, ədalət prinsipi, balans qorunmalıdır, əks halda elə biryolluq ləğv etsinlər.

Şair dostumuz Bahadur Qobustan mənim də adımı çəkərək yazmışdı ki, bu gənclərə və orta yaşlı şair, yazıçılara xalq şairi, yazıçısı adı verilsə, daha yaxşı olar. Əslində, fəxri ada lüzum yox, şərait yaratsınlar: şeirlərimiz, hekayələrimiz tərcümə edilib, başqa ölkələrdə nəşr olunsun. 21-ci əsrdə başına raket yağan dünya insanına sevimli şairlərimiz Molla Pənah Vaqif, Qasım bəy Zakir, Süleyman Rüstəm maraqlı deyil. İstanbulda türk şairləri mənə dedilər ki, "Azərbaycanın bir şeir antologiyası çıxmışdı burda, siz qaliba hələ də köhnə stildə yazırsınız". Böyrümüzdəki Türkiyə bilmir ki, Azərbaycan poeziya bu gün türkdilli poeziyanın fövqündədir. Elə bilirlər, hələ də məsnəvi, poema yazırıq.

Azərbaycan ədəbiyyatında son 30 ildə başlamış yeniliyə, intibaha təcili şəkildə dəstək vermək lazımdır. Yoxsa böyük bir nəsil yox olub gedəcək. Beləcə biz daha bir "itirilmiş nəsil"dən danışacağıq.



**Emin Piri:** Ad vermə qaydası, dövlət tərəfindən qiymətləndirilmə Avropadan tutmuş Amerikaya kimi var. Amma bunun hansı meyarlarla müəyyənləşdirilməsi ayrı məsələdir. Yəni bu daha çox hər hansı qurumun tabeçiliyində olan səlahəyyət deyil, ümumi, ictimai, dövlət qarşsında olan xidmtlərə görə verilir. İnsanların əməyinin, yaradıcılığının qiymətləndirilməsi pis bir şey deyil. Sadəcə dünya müəyyən dərəcədə bu prosesdə özəl sektora keçib. Nobel mükafatı məgər mükafat deyil? Yenə dEyirəm, bu mükafatlandırmanın daha çox meyarlarla müəyyənləşdirilməsində dəyişiklik olmalıdır. amma mükafatlar qala bilər.



**Mirmehdi Ağaoğlu:** Fəxri adlar vaxtı çoxdan keçib. Biz isə Sovet ənənəsini saxlamağa davam edirik. Belə ənənə o zaman təqdirəlayiq olar ki, yaradıcılığının parlaq dövrü Sovet dövrünə düşmüş yazıçılar mükafatlandırılsın və bununla da bu ad məsələləri bitsin. Yaradıcılığı müstəqillik illərindən sonra başlayan yazıçılara isə belə adların verilməsi məqbul deyil, heç onlar özləri də bunu istəməməlidir. Elə sonuncu mükafatlandırma ilə bu prosesi bitirmək olardı, amma təəssüf ki, siyahıda Vaqif Bayatlı Odərin adı olmadı. Düşünürəm ki, Vaqif Bayatlı Odərə də bu adı verib məsələni qapatmaq olar.

**Ulucay Akif**